*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 180-185* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.180*

# AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞINDA ŞƏRH VƏ ƏDƏBİ RİSALƏ JANRLARI

**Gülşən Zeynalova**
Bakı Dövlət Universiteti. Azərbaycan.
E-mail: gulsenz@bk.ru

**Annotasiya.** Qədim dövr və orta əsrlər Azərbaycan ədəbi-estetik fikri müxtəlif istiqamətlərdə inkişaf etmişdir. Bu istiqamətlərdən birini professional tənqidçilərin şərh və ədəbi risalə janrlarında yazdıqları əsərlər təşkil edir. Həmin əsərlərdə söz və onun qüdrəti, ədəbi istedad, orijinal fikir demək bacarığı, sənətin həyata münasibəti, bədii metod, məzmun və forma kimi məsələlər haqqında o dövrün ədəbi-nəzəri fikrinin imkan verdiyi səviyyədə müəyyən mülahizələr deyilmişdir. Şərh və ədəbi risalə janrları, eyni zamanda Azərbaycan ədəbi tənqidinin klassik formalarına daxildir.
Lüğəvi mənası açıqlamaq, aydınlaşdırmaq, izah etmək, bəyan etmək olan şərh ədəbiyyatşünaslıq termini kimi yazılı və şifahi mətndəki mənanı, çətin anlaşılan söz və ifadələrin mənasını izah edən deməkdir. Hər hansı bir əsəri oxucular üçün hissə-hissə aydınlaşdıran şərhçilər mətnin izahını verməklə bərabər, ədəbiyyatşünaslığa dair məsələlər haqqında da fikirlərini bölüşmüş, bəzən digər şərhçilərlə mübahisələrə də yer vermişlər.
Qərb ədəbiyyatında şərh yazmaq ənənəsi antik dövrlə bağlı olsa da, Şərqdə bu janrın əsası X əsrdə qoyulmuşdur. Azərbaycan ədəbiyyatşünaslığında isə Xətib Təbrizi və Yusif Xoylu şərh janrının görkəmli nümayəndələri kimi tanınmışlar.
Ədəbi risalələr də orta əsrlərdə tənqid, nəzəriyyə və ədəbiyyatşünaslıq elmlərinin keçdiyi inkişaf mərhələlərini, elmi-nəzəri düşüncənin əsas istiqamətlərini öyrənmək baxımından mühüm əhəmiyyət daşıyır. Onun inkişafında Nəsirəddin Tusinin "Meyarül-əşar", "Əsasül-iqtibas", Şərəfəddin Raminin "Ənisül-üşşaq", "Hədayiqül-həqaiq", Əssar Təbrizinin "Əl vafi fi tedadül qəvafi", Vəhid Təbrizinin "Risaleyi-cəmi-müxtəsər" əsərləri mühüm rol oynamışdır.
**Açar sözlər:** ədəbi tənqid, janr, klassik janr, şərh, ədəbi risalə

**Məqalə tarixçəsi:** göndərilib – 03.10.2023; qəbul edilib – 17.10.2023

# COMMENTARY AND LITERARY TREATISE GENRES IN AZERBAIJANI LITERARY CRITICISM

**Gulshan Zeynalova**
Baku State University. Azerbaijan.
E-mail: gulsenz@bk.ru

**Abstract.** Ancient and medieval Azerbaijani literary-aesthetic thought developed in different directions. One of these directions is the works written by professional critics in the genres of commentaries and literary treatises. In those works, certain opinions were expressed about issues such as the word and its power, literary talent, the ability to express original ideas, the relationship of art to life, artistic method, content and form at the level allowed by the literary-theoretical opinion of that time. Commentary and literary treatise genres are also included in the classic forms of Azerbaijani literary criticism.

The literal meaning of interpretation is to explain, clarify, explain, declare, as a term of literary studies, it means that explains the meaning of the written and oral text, the meaning of words and phrases that are difficult to understand. The commentators who clarify any work for the readers in parts, along with the explanation of the text, also shared their opinions on issues related to literary studies, and sometimes gave space to debates with other commentators.

Although the tradition of writing commentary in Western literature dates back to antiquity, the foundation of this genre in the East was laid in the 10th century. In Azerbaijani literary studies, Khatib Tabrizi and Yusif Khoylu were recognized as prominent representatives of the commentary genre.

Literary treatises are also important in terms of studying the development stages of criticism, theory and literary studies in the Middle Ages, and the main directions of scientific-theoretical thinking. In its development, the works such as “Meyarul-eshar”, “Asasul-iqtibas” by Nasiruddin Tusi, “Anisul-ushshag”, “Hadayiqul-haqaiq” by Sharafeddin Rami, “Al wafi fi tadadul qawafi” by Assar Tabrizi, “Risaleyi-jami-mukhtasar” by Vahid Tabrizi played an important role.

**Keywords:** literary criticism, genre, classical genre, commentary, literary treatise

**Article history:** received – 03.10.2023; accepted − 17.10.2023

## Giriş / *Introduction*

Ərəb mənşəli “şərh” sözü açıqlamaq, aydınlaşdırmaq, izah etmək, bəyan etmək, kəşf etmək mənalarında işlənir. Ədəbiyyatşünaslıq termini kimi isə şərh yazılı və şifahi mətndəki mənanı, müəllif fikrini, əsərin izaha möhtac hissələrini, çətin anlaşılan söz və ifadələrin mənasını izah edən, aydınlaşdıran deməkdir.

Tənqidin klassik janrlarına daxil olan şərh orta əsrlərdə bir əsəri geniş oxucu kütləsi üçün aydınlaşdırmaq məqsədilə yazılmışdır. Lakin şərhçilər ayrı-ayrı əsərlərin misra-misra, beyt-beyt izahını vermək və burada ifadə olunan fikir və mənaların açılmasına çalışmaqla bərabər, eyni zamanda əsər, müəllif və ədəbi proses haqqında fikirlərini də əlavə etmiş, ədəbiyyatşünaslığa dair məsələlər haqqında düşüncələrini bölüşmüş, həmçinin başqa şərhçilərlə mübahisələrə də yer vermişlər.

## Əsas hissə / *Main Part*

Şərhlər, adətən, başqaları tərəfindən yazılsa da, əsər müəlliflərinin öz yazdıqlarını şərh etməsi halları ilə bərabər, şərhin özünü də şərh edənlər olmuşdur. Onlar, əsasən, bütöv bir əsəri izah etmək üçün yazılsa da, bəzən ayrı-ayrı kitabların əsas hissələri şərh edilmişdir.

Mənbələrdə şərhlərə, əsasən, üç səbəbdən ehtiyac duyulduğu göstərilməkdədir:

1. Birincisi, əsərin müəllifi tədqiq etdiyi mövzunu öz zəkası, bacarığı və biliyi çərçivəsində yazsa da, bütün oxucuların eyni səviyyədə olmaması;
2. Mətndə təməl biliklərə yer verilməməsi, bəzi hökmlərin səbəblərinin göstərilməməsi;
3. Əsərdə izaha möhtac hissələrin, məcazi mənalı söz və ifadələrin işlənməsi [3].

Bundan əlavə, bəzi əsərlərdə mövcud olan yanlışlıqlar və çatışmazlıqlar əsərin şərh edilməsinin vacib olduğunu göstərən amillərdəndir. Şərhçilər müəllifin düşüncələrini izah etdikdən sonra, mövzu ilə əlaqədar bütün fikirləri müzakirə edir, öz düşüncələrinə və etirazlarına yer verirlər.

Qərb ədəbiyyatında şərh yazmaq ənənəsi antik dövrlə bağlıdır. Yunan alimləri Aristotel və Platonun əsərləri fəlsəfi şərhlərin meydana gəlməsinə səbəb olmuşdur. İlk dövrlərdə onların əsərlərini şərh edən şagirdləri qarşılarına mətnləri tənqid etmək deyil, genişləndirmək məqsədi qoymuşdular.

İslam aləmində isə Məhəmməd peyğəmbərin Qurandakı bəzi məsələləri təfsir etməsi, müqəddəs kitabda istifadə olunan sözlərin mənalarının

və hökmlərin izah olunması şərh janrının başlanğıcı hesab olunur [3].

Ərəb ədəbiyyatında ilk dövrlərdə bütün şərhlər həm dini, həm də dil, qrammatika, astronomiya və digər elm sahələrinə aid şərhlər təfsir adlanırdı. Lakin sonradan bu terminin sərhədlərinin müəyyənləşməsi şərh janrının ortaya çıxmasına zəmin yaratdı.

Nəzəri ədəbiyyatda şərhlərin iki cür: klassik şərhlər və təsəvvüfi şərhlər olduğu göstərilir. Təsəvvüf elementlərini özündə əks etdirən şərhlər təsəvvüfi şərhlər; fars, ərəb ədəbiyyatına daxil olan əsərlərə yazılmış şərhlər isə klassik şərhlər hesab olunur [5, s.303].

Şərqdə ilk nümunələri X əsrdə yaranan şərh janrının əsası ərəb ədəbiyyatşünasları Əbu Bəkr əs-Suli və İbn Cinninin Əbu Təmmam və Əl-Mütənnəbininin divanlarına yazdıqları əsərlərlə qoyulmuşdur. Bu dövrdə yazılan şərhlər daha çox şairlərin divanlarının qrammatik təhlilinə söykənsə də, sonrakı zamanlarda bədii əsərlərin müxtəlif istiqamətlərinə yer verilmişdir.

Ədəbi tənqidin ilk janrı kimi XI əsrdə meydana gələn şərhlər orta əsrlərdə Azərbaycan ədəbi-estetik fikrinin geniş yayılmış növlərindən biri olmuşdur. Xətib Təbrizi və Yusif Xoylu elm aləmində görkəmli şərhçilər kimi tanınmış, hər ikisi "şərh necə olmalıdır" sualına konkret cavablar vermişlər. Lakin onların yaradıcılığına nəzər salmadan öncə Azərbaycan ədəbiyyatşünaslığında şərh janrı ilə bağlı mövcud nəzəri fikirlərə diqqət yetirmək vacibdir. Klassik ədəbiyyatın görkəmli tədqiqatçısı Əziz Mirəhmədovun "Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət" adlı kitabında şərh terminine yer verilmiş, folklorşünaslıq və mətnşünaslıqda mühüm yeri olması, külliyyat, seçilmiş əsərlər, müntəxabat, sənədlər məcmuəsi və s. kimi nəşrlərin mündəricat hissəsində böyük yeri olan janr kimi bəhs olunmuşdur. Lüğətdə, eyni zamanda yığcamlıq, konkretlik, hökm və nəticələrin dürüstlüyünün janrın əsas məziyyətlərindən hesab olunması vurğulanmışdır [2, s.243]. Lakin maraqlıdır ki, professor Vilayət Quliyev və Xalq yazıçısı Elçinin tərtib etdiyi, əsasən, klassik ədəbiyyatla bağlı terminlərin izahına həsr olunmuş "Özümüz və sözümüz" adlı lüğətdə şərh termini ayrıca verilməsə də, şərhçilik anlayışından bəhs olunarkən bu janrın xüsusiyyətlərinə toxunulmuşdur.

Görkəmli tənqidçi Kamal Talıbzadə "Azərbaycan ədəbi tənqidinin tarixi" adlı əsərində şərhdən ədəbi-estetik fikrin ilk janrı kimi bəhs etmişdir. Müəllif yazır ki, şərhçilər dövrlərinin məşhur filoloqu olub, tanınmış şairlərin əsərlərini beyt-beyt izah edir, mənalarını açırdılar. Şərhçilərdən orta əsr şairləri kimi ensiklopedik bilik tələb olunurdu. Buna görə də onlar əsəri şərh edərkən tarixi, fəlsəfi, dini problemlərə, dilçilik və üslubiyyat məsələlərinə müraciət edirdilər. Ədəbi təhlilin bu şəkildə olması oxucuların tələbatı və səviyyəsi ilə əlaqədar olmuşdur [4, s.17]. Bunlardan əlavə, tənqidçi Rəhim Əliyevin "Ədəbiyyat nəzəriyyəsi" kitabında da şərh janrına müəyyən yer verilmiş, traktat, dialoq, təzkirə, monoqrafiya, lüğətlər və məqalələrdən şərhin janrları kimi bəhs olunmuşdur. Fikrimizcə, müəllif şərh janrına ədəbi tənqidin klassik janrı kimi deyil, ümumi anlayış kimi yanaşmışdır. Professor Vaqif Sultanlının "Azərbaycan ədəbi tənqidi" kitabında isə şərhdən ədəbi tənqidin klassik janrı kimi bəhs olunmuşdur.

Şərhin mövqeyi və vəzifələri haqqında, eyni zamanda janrın xüsusiyyətləri barədə X.Təbrizi, Y.Xoylu kimi görkəmli alimlərin müəyyən fikirləri olmuşdur. Xətib Təbrizi bu fikirdə idi ki, şərh obyektiv, qərəz və təəssübkeşlikdən uzaq olmalıdır. Şərhə mühüm janr kimi yanaşan X.Təbrizi bu janrın xarakteri haqqında belə yazır: "Ən yaxşı şərh odur ki, qısa və aydın olsun, uzun və cansıxıcı görünməsin" [4, s.18]. Y.Xoylunun da şərh janrının xüsusiyyətləri haqqında söylədiyi fikirlər X.Təbrizinin sözləri ilə üst-üstə düşür. O da şərhçiliyin uzun-uzadı təhlillərdən uzaqlaşdırılıb bədii təhlilə, şeirin sənətkarlıq sirlərinin açılmasına yönəltmək barədə mülahizələr irəli sürmüşdür.

Yusif Xoylunun 1146-cı ildə qələmə aldığı "Tənvir" əsəri əbu-l-Əla əl Məərrinin "Səqt əz zənd" divanına toplanan şeirlərin şərhindən ibarətdir. Bu əsəri yazmaqda şairin məqsədi şeirlərin daxili məzmununu açmaq və mənalarını izah etmək olmuşdur. Məlumdur ki, Əbu-l-Əlanın bu divanını Xətib Təbrizi şərh etmişdir. Y.Xoylu "Tənvir" əsərini ərsəyə gətirməzdən öncə Xətibin şərhi ilə tanış olmuş, onu nöqsanlı

və yarıtmaz hesab etmişdir. Bunun səbəbi kimi X.Təbrizinin dilçilik məsələlərinə həddindən artıq meyil etməsini və şeirlərin bədii fəlsəfi mənalarını aça bilməməsini göstərir. Buna görə də o, divana daxil olan şeirləri şərh edərkən onların bədii və fəlsəfi mənalarını açmağa çalışmış, tarixi hadisələrin geniş təsviri, folklor, etnoqrafiya məsələlərinin izahını öz şərhində əks etdirmişdir. Əsəri yazmadan öncə Y.Xoylu şairin yaradıcılığını dərindən araşdırmış, ədəbiyyatşünaslıq elminin sirlərinə dərindən yiyələnmiş, daha sonra şəriət elmi, təbiət fəlsəfəsi ilə məşğul olmuşdur. Bütün bunlar onun şərhçilik elminə necə ciddi yanaşdığını göstərir. Şeirlərdə forma ilə məzmun vəhdətini əsas şərt hesab edən müəllif şair Məərrini yüksək qiymətləndirsə də, onun nöqsanlarını ifadə etməkdən çəkinməmiş, "məzmun qırıqlığına təsadüf olunduğunu" bildirmişdir.

Xoylu şairin ateist məzmunlu şeirlərinə də etirazını bildirmişdir.

Əgər Məhəmməddən sonra vəhy kəsilməsəydi,

Deyərdin ki, Məhəmməd (mədh edilən şəxsin adı) öz adaşının əvəzidir.

O da fəzilətdə onun kimidir,

Lakin Cəbrayıl ona Allahın hökmünü gətirməmişdir.

Peyğəmbərliyin mahiyyəti onunla tanındı,

Halbuki sübutun sübuta ehtiyacı yoxdur [1, s.167].

Ateist məzmunlu bu beytlərdə Əbu-l-Əla dinin bir sıra müddəalarına qarşı çıxmışdır. Şeirdə şairin mədh etdiyi Məhəmməd adlı şəxs fəzilətdə Məhəmməd peyğəmbərə bərabər tutulmuşdur. Bu şeiri şərh edib, qeyd olunan fikirlərə şərik olduğunu bildirən X.Təbrizidən fərqli olaraq, Y.Xoylu kəskin etirazını bildirmiş, Məhəmməd peyğəmbərin fəzilətdə bütün yaradılmışlardan üstün olduğunu qeyd etmişdir.

Orta əsrlərdə ədəbi tənqidi fikrin ikinci ifadə vasitəsi risalələr olmuşdur. Bir çox elm sahələrinə aid əsərlər bu formada yazıldığından ədəbiyyatla bağlı əsərlərin "ədəbi risalə" adlanması daha məqbul hesab olunur. Risalələrin müəllifin elmi-nəzəri səviyyəsindən və mövzusundan asılı olaraq tərtib prinsipləri fərqli olur. Burada əruz vəzni, qafiyə, dil-üslub, bədii təsvir vasitələri, poetik fiqurlar, şeirin ölçüləri, bədii sənətkarlıq və s. haqqında elmi-nəzəri məlumat verilir. Tənqid, nəzəriyyə və ədəbiyyatşünaslıq elmlərinin keçdiyi mərhələləri, elmi-nəzəri düşüncənin əsas istiqamətlərini və problemlərini öyrənmək baxımından risalələr mühüm əhəmiyyət daşıyır.

Əziz Mirəhmədovun "Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət" adlı əsərində qeyd olunur ki, risalə Azərbaycanda orta əsrlərdə və yeni dövrdə çox vaxt yığcam elmi və dini əsərə, kitabçaya verilən addır. Maraqlıdır ki, müəllif axund Əbdüssəlamın "Risaleyi-zübdətül-əhkam", Molla Əbulqasım Axundzadə Gənceyinin 20-ci əsrin əvvəllərində nəşr etdirdiyi "Risaleyi-ittihadiyyə", sufi ədib və mütəkəllim Əbdülqasım Quşeyrinin "Ər-Risalət əl-Quşeyriyyə fi elm ət-təsəvvüf" əsərlərini janrın nümunələri kimi qeyd etsə də, X.Təbrizinin, Ş.Raminin, V.Təbrizinin adları çəkilmir.

Orta əsrlərdə nəzəri-estetik fikrin inkişafı Nəsrəddin Tusi, Şərəfəddin Rami, Əsrar Təbrizi, Vəhid Təbrizi kimi görkəmli şəxsiyyətlərin yaradıcılığında öz əksini tapmışdır. Nəsirəddin Tusi "Əsasül-iqtibas" və "Meyarül-əşar" adlı risalələrində Şərq şeirinin poetik məsələlərindən, bədii yaradıcılıq metodlarından maraqlı mülahizələr etmişdir. Əssar Təbrizinin "Əl vafi fi tedavül-qəvafi" əsərində isə qafiyə qaydalarından bəhs olunmuşdur.

XIV əsr Azərbaycan ədəbi-nəzəri fikrinin görkəmli nümayəndəsi olan Şərəfəddin Rami risalə janrında yazılmış "Ənisül-üşşaq" və "Hədayiqül-hədaiq" əsərləri ilə tanınmışdır. Məhz bu əsərlərinə görə, Dövlətşah Səmərqəndi onu ədəbiyyat nəzəriyyəsi sahəsində dövrünün ustadı hesab etmişdir. "Ənisül-üşşaq" əsəri təsvir vasitələrinin, xüsusilə təşbehlərin şərhinə həsr olunmuşdur. Burada müəllif insanın poeziyada işlənən ayrı-ayrı üzvlərindən obraz yaratmaq üçün sənətkarların onlardan bədii vasitə kimi necə istifadə etməsindən danışır. Sıra ilə zülf, alın, kirpik, göz, sifət, üz, qaş, xal, ağız, zənəxdan, bel və s. haqqında danışır, poeziyada onlardan necə istifadə olunduğunu göstərir. On doqquz hissədən ibarət olan bu əsərdə bədii nümunələrin seçilməsi və təhlili Raminin yüksək ədəbi zövq, zəngin mütaliə sahibi olduğunu, eyni zamanda onun Şərq poetikasına bələdliyini də göstərir.

Ş.Raminin "Hədayiqül-hədaiq" adlı digər risaləsi isə Şərq poeziyasının sənətkarlıq nailiyyətlərini göstərmək məqsədilə yazılmışdır. Müəllif bu əsəri İran alimi Rəşidəddin Vətvatın "Hədayiqüs-sehr" adlı əsərinə cavab olaraq yazmış və yeni fikirlər də söyləmişdir. Əsərdə Şərq poeziyasından nadir nümunələr verilməklə qafiyə, rədif, təcnis, məcaz, istiarə və s. ədəbi terminlərin tərifi verilmiş, onların ayrı-ayrı növlərindən bəhs olunmuşdur. Ədəbi proseslə əlaqədar olan bu əsər, eyni zamanda orta əsrlərdə ədəbiyyat nəzəriyyəsi dərsliyi kimi istifadə olunmuşdur.

## Nəticə / *Conclusion*

XV əsrdə yaşamış məşhur azərbaycanlı şair və alim Vəhid Təbrizinin elm aləminə məlum olan iki əsəri "Müftahi-bədai" və "Cəmi müxtəsər" əsərləri risalə janrında yazılmışdır. Bu kitabların hər ikisinin müəllifin qardaşı oğlu Səfiəddin üçün yazdığı qeyd olunur. Zəmanəsinin tanınmış şairi olan V.Təbrizi yazdığı risalələrdə işlənən nümunələri öz divanından götürmüşdür. Müəllifin qafiyə haqqında qeydləri xüsusi əhəmiyyət kəsb edir. Adıçəkilən risalələrin əlyazma nüsxələri Britaniya muzeyində, Qoha, Vena, Berlin, və Münxen kitabxanalarında saxlanılır. 2021-ci ildə latın qrafikası ilə çap olunan "Cəmi müxtəsər" əsəri Aleksey Bertels tərəfindən tərtib olunmuş, tənqidi mətnin tərcüməsi əsasında hazırlanmışdır.

## Ədəbiyyat / *References*

1. Mahmudov, M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər: VII-XII əsrlər / M.Mahmudov. – Bakı: Şərq-Qərb, 2006.
2. Mirəhmədov, Ə.M. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət / Ə.M.Mirəhmədov. – Bakı: Azərbaycan ensiklopediyası, 1998.
3. Şensoy, S. Şerh: [Elektronik kaynak] / URL: https://islamansiklopedisi.org.tr/serh
4. Talıbzadə, K.A. Azərbaycan ədəbi tənqidinin tarixi / K.Talıbzadə. – Bakı: Şərq-Qərb, 2015.
5. Yılmaz, O. Klasik şerh edebiyatı literatürü // – Türkiye: Türkiye araştırmaları literatür dergisi, 2007, №:5, №:9.

# ЖАНРЫ КОММЕНТАРИЕВ И ЛИТЕРАТУРНЫХ ТРАКТАТОВ В АЗЕРБАЙДЖАНСКОМ ЛИТЕРАТУРОВЕДЕНИИ

**Гульшан Зейналова**
Бакинский Государственный Университет. Азербайджан.
E-mail: gulsenz@bk.ru

**Резюме.** Древняя и средневековая азербайджанская литературно-эстетическая мысль развивалась в разных направлениях. Одним из таких направлений являются произведения профессиональных критиков в жанрах комментариев и литературных трактатов. В этих работах высказывались определенные мнения о таких вопросах, как слово и его сила, литературный талант, способность выражать оригинальные идеи, отношение искусства к жизни, художественный метод, содержание и форма, на уровне, допускаемом литературно-теоретическим мнением того времени. К классическим формам азербайджанской литературной критики также относятся жанры комментариев и литературных трактатов.
Лексическое значение «объяснять, разъяснять, разъяснять, заявлять» – как термин литературоведения он означает то, что объясняет смысл письменного и устного текста, значение слов и словосочетаний, которые трудно понять. Комментаторы, разъясняющие читателям какое-

либо произведение по частям, наряду с пояснением текста, также делились своим мнением по вопросам, касающимся литературоведения, а иногда давали место дискуссиям с другими комментаторами. Хотя традиция написания комментариев в западной литературе восходит к античности, основы этого жанра на Востоке были заложены в X веке. В азербайджанском литературоведении Хатиб Тебризи и Юсиф Хойлу признаны видными представителями комментаторского жанра.

Литературные трактаты важны и с точки зрения изучения этапов развития критики, теории и литературоведения в средние века, основных направлений научно-теоретической мысли. Большую роль в его развитии сыграли такие произведения как «Меярул-эшар», «Асасул-иктибас» Насируддина Туси, «Анисул-ушшаг», «Хадайкул-хакаик» Шарафеддина Рами, «Аль вафи фи тададуль кавафи» Ассара Тебризи, «Рисалейи-джами-мухтасар» Вахида Тебризи.

**Ключевые слова:** литературная критика, жанр, классический жанр, комментарий, литературный трактат